# Ağdam olduqca gözəl bir məkana çevriləcək

***Bu il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad edilmiş Ağdama səfər edibdir. Səfər zamanı bir çox obyektlərin təməli qoyulub, dövlətimizin başçısına Ağdam şəhərinin baş planı təqdim olunub. Möhtərəm Prezidentimiz əvvəlcə Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşərək, parlaq, dərin məzmunlu çıxış edib.***



Cənab İlham Əliyev çıxışında Respublika Gününün Ağdam şəhərində qeyd edilməsinin çox böyük rəmzi mənası olduğunu vurğulayaraq deyib: “Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq”.

Bəli, bu gün Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasəti, yüksək səriştəli idarəçiliyi sayəsində Azərbaycan təkcə regionda deyil, bütün dünyada qüdrətli dövlətlərdən birinə çevrilib. Biz indi xalqımızın çoxminillik tarixinin ən şərəfli dönəmini yaşayırıq. Belə ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin yüksək qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun şücaəti nəticəsində Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində yağı düşmən üzərində tarixi zəfər qazanmışdır.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının qələbə əzmini, yenilməz iradəsini bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaq. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi qürur hissi ilə yaşayacaq.

Hər dəfə möhtərəm Prezidentin dilindən Qarabağın parlaq gələcəyi ilə bağlı bir-birindən gözəl arzu və planlar barədə məlumat aldıqca, xüsusilə son vaxtlar dövlətimiz tərəfindən Qarabağda əməli olaraq aparılan genişmiqyaslı, vüsətli tikinti-quruculuq işlərini müşahidə etdikcə, hər birimizin qəlbi sevincdən dağa dönür.

Yeri gəlmişkən, Azərbaycan xalqının Qarabağda möhtəşəm qələbəsi bir -

maz dağıntılar törədib. Bu, əsl vandalizmdir, bunun başqa adı yoxdur. Azərbaycan, faktiki olaraq təkcə faşist Ermənistan dövləti üzərində qələbə qazanmayıb, bütövlükdə faşizm əleyhinə müharibə aparıb.

Hər şey göz qabağındadır. Azərbaycan dövləti, Ermənistanın tam əksinə olaraq, işğaldan azad edilən ərazilərdə, Qarabağda, eləcə də Ağdamda qurub-yaratmaqla məşğuldur. Zərrə qədər şübhə etmirəm ki, cənab Prezidentin vurğuladığı kimi, Ağdam şəhəri ən yaxın gələcəkdə olduqca gözəl bir məkana çevriləcək.

Əminəm ki, işğaldan azad edilən bütün digər bölgələrin sakinləri kimi, ağdamlı köçkün ailələri də tezliklə öz doğma yurdlarına qayıdacaq, burada xoşbəxt və firavan bir həyat yaşayacaqlar. Bu ailələrin hər biri, bütövlükdə qədirbilən Azərbaycan xalqı çağdaş dünyanın ən görkəmli tarixi şəxsiyyətlərindən olan Prezident İlham Əliyevin tarixi xidmətlərini heç vaxt unutmayacaqlar.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

Xalq qəzeti 2021.- 30 may.- S.13.